**UOT: 821.21**

# İNDU SUNDARESANIN "TAC MAHAL" TRİLOGİYASINDA SƏFƏVİ-BABURLU ƏLAQƏLƏRİ

**Leyla PİRİMOVA***

***Açar sözlər:*** *Baburlular, Səfəvi, Hindistan, türk, trilogiya*


## *XÜLASƏ*

Orta əsrlərdə fərqli coğrafiyalarda müxtəlif türk dövlətləri, tür-islam mədəniyyəti özünün qızıl dövrünü yaşayırdı. Bu dövr bir çox tarixçi tərəfindən "türk əsri" olaraq adlandırılır. Ancaq bu dövlətlər arasında xoş münasibətlərin olduğunu demək çətindir. Bu dövlətlər bir çox kəs savaş meydanında qarşı-qarşıya gəlmişdir. İndu Sundaresan da "Tac Mahal" trilogiyasında həmin dövrün tarixinə müraciət etmişdir. Ədib trilogiyada əhatə etdiyi dövrdə baş verən hadisələrin təsviriylə oxucunu orta əsr tarixinə nəzər salmağa yönəldir.

Babur imperiyasından bəhs edən trilogiyada yazıçı təbii olaraq dönəmin siyasi mühitini təsvir edərkən baburluların daxili və xarici siyasətinə də geniş yer verir. Bu önəmli məsələlər içərisində birbaşa tariximizə aid olan bir məsələ xüsusilə diqqəti cəlb edir ki, bu da Azərbaycan Səfəvi dövlətinin qonşusu və tərəfdaşı olan Babur imperiyası ilə əlaqələrin kökünün necə qoyulduğu və sonrakı inkişafmərhələlərindən ibarətdir.

Babur imperiyasında xidmət edən bir sıra tarixi şəxsiyyətlər əslən Səfəvi dövlətlərindən idi. Bu şəxsiyyətlərin sarayda nüfuzları çox güclü idi və bu əsilzadələr bir az cəsarətlənmə ilə üsyan edərək Səfəvi müdaxiləsinin önünü aça bilərdilər. Bu dövlətlər arasında ən böyük problem Qəndəhar nəzarət məntəqəsinin ələ keçirilməsi idi. İki dövlət də qarşılıqlı olaraq bir-birlərinə təcavüzkar diplomatiya yolunu izləyərək sərhəd ərazilərinə müdaxilə təhdidləri bəyan edirdilər. Bu yaşanan hadisələri yazıçı trilogiyasında bədii və dolğun boyalarla təsvir etmişdir.


## Giriş

XV və XVI əsrlərdə Şimali Hindistan, Misir və Türküstan kimi fərqli coğrafiyalarda müxtəlif türk dövlətləri, türk-islam mədəniyyəti özünün qızıl dövrünü yaşayırdı. Tarixin bu mərhələsi bir çox tarixçi tərəfindən "Türk əsri" olaraq adlandırılır. Bu dönəm Osmanlı ehtişamı, bügünki İran və Azərbaycan torpaqlarında hakim olan Səfəvi dövləti, Şimali Hindistanı nəzarəti altında saxlayan baburlular, Qərbi Türküstanda Şeybani xanədanı tərəfindən qurulan Buxara xanlığı ilə Səmərqənd və Xorasana hakim olan Teymuri imperatorluğuda daxil olmaqla dönəmin türk dövlətləri məlum dünyanın təxminən üçdə ikisinə hökm edirdi. Ancaq bu dövlətlər arasında xoş münasibətlərin olduğunu demək çətindir. Yaşanan rəqabətbu dövlətləri bir çox kəs savaş meydanlarında qarşı-qarşıya gətirdi.

Babur imperiyasının xarici siyasətinin əsas istiqamətlərindən birini əsası 1501-ci ildə qoyulmuş türk-müsəlman dövləti olan Səfəvi imperiyası ilə münasibətlər təşkil edir. Səfəvilər və baburlular arasındakı ilk əlaqələr Səfəvi Şah İsmayıl ilə Babur imperiyasının qurucusu Babur şah tərəfindən qoyulmuşdu. Tarixi qaynaqlar da bunu təsdiqləyir: "Baburla Şah İsmayılın münasibətləri yaxşı idi. İsmayıl, Əmir Nəcm-Sani başçılığı altında Babura kömək üçün bir ordu göndərdi və Hüseyn bəy Lələ ilə Bayram bəy Qaramana bu orduya qatılmalarına əmr verdi" (4, s.184).

*doktorant, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstutunu*
*E-mail: leyla.pirimova@mail.ru*

**Tədqiqat**

Tarix ilə ədəbiyyat arasında çox qədimlərə uzanan bir əlaqə vardır. Tarixin ədəbiyyat üçün bir "material" və "ilham qaynağı", ədəbi əsərlərin də tarix üçün zaman-zaman "vəsiqə" dəyəri daşıdığı bilinən bir gerçəkdir (7, s.1875). Hind əsilli Amerika yazıçısı İndu Sundaresan da"Tac Mahal" trilogiyasında həmin dövrün tarixə müraciət etmişdir.Ədib trilogiyada əhatə etdiyi dövrdə baş verən hadisələrin təsviriylə oxucunu orta əsr tarixinə nəzər salmağa yönəldir. Babur imperiyasından bəhs edən trilogiyada yazıçı təbii olaraq dövrün siyasi mühitini təsvir edərkən baburluların daxili və xarici siyasətinə də geniş yer verir. Bu önəmli məsələlər içərisində birbaşa tariximizə aid olan bir məsələ xüsusilə diqqəti cəlb edir ki, bu da Azərbaycan Səfəvi dövlətinin qonşusu və tərəfdaşı olan Babur imperiyasıyla əlaqələrinin kökünün necə qoyulduğu və sonrakı inkişaf mərhələlərindən ibarətdir. Babur, Şah İsmayıldan kömək istəyərək Səmərqənd və Buxaranın ələ keçirməsi zamanı onun adına xütbə oxunacağını vəd etdi (13, s.104) .

"İyirminci arvad" romanında müəllif elə ilk səhifələrdə oxucularına əsas obrazlarından birinin Səfəvi dövlətindən olduğunu göstərir. Belə ki, sonralar hind-türk imperiyası olan Babur dövlətində yüksək vəzifələrdə çalışan, onun qızı xüsusilə nəvəsi hind tarixində silinməz iz qoyan əsrlər sonra adından söz etdirəcək Mumtaz Mahalın (Ərcümənd Banu) babası Hindistana məhz Səfəvilər dövlətindən sığınmışdı. Qiyas bəyin atası Məhəmməd Şərif Səfəvi şahı Təhmasibin sarayında bir soyluydu. Vəzifəsini icra etmək üçün əvvəlcə Xorasan, sonra Yəzd və son olaraq İsfahana gəlmişdilər. Məhəmməd Şərif 1576-ci ildə İsfahan vəziri ikən ölür. Elə həmin il Şah Təhmasib də ölür. İran taxtına II Şah İsmayıl çıxır. Yeni rejim Məhəmməd Şərifin oğullarına mərhəmət etmir. Belə ki, ailə dəbdəbəli həyata görə çox pul xərcləmiş və xeyli borcları vardı. Atasının və şahın ölümü, yeni rejimin başlaması ailəni çətin vəziyyətə salır. Bir zamanlar üzərinə öhdəçilik götürən dostlar onlardan uzaqlaşır. Sarayda atasının yaxın dostu olan biri Qiyas bəyə onun gələcəyi barədə xəbərdarlıq edir. Borcların əvəzində cəzası ya ölüm, ya da Borçlular həbsxanasında dustaq kimi yaşamaq idi. Qiyas bəy çıxış yolunu vətəni olan Səfəvilər dövlətini tərk edərək cənuba getməkdə olan ticarət karvanıyla Hindistana getməyə qərar verir.

Müəllif əsərin süjet xəttilə bağlı hadisələri təsvir edərkən yenidən Səfəvi dövlətilə əlaqələrə diqqət çəkir. Belə ki, bir zamanlar tək qurtuluşu Hindistan olacağı qənaətinə gələrək bu diyara pənah gətirən Qiyas bəy kimi, onun həmyerlisi də bu imperiyaya sığınır: "Əliqulu Əkbərin sarayında yeni bir sima idi. Qiyas bəy kimi o da İrandan Hindistana qaçmışdı. Lakin onun qaçışı II Şah İsmayılın 1578-ci ildə qətl edilməsindən sonra gerçəkləşmişdi" (5, s.85).

Səfəvi və baburlular arasındakı ən böyük problem Qəndəharməntəqəsinə nəzarət idi. Bu şəhər coğrafi mövqeyi baxımından böyük əhəmiyyət kəsb edirdi. 1522-ci ildə Babur arqunluların üzərinə hücum edərək uzun bir mübarizədən sonra şəhəri zəbt etmişdi. Baburun ölümünün ardından oğulları Kamran Mirzə ilə Hümayun arasındakı taxt çəkişməsində şəhər səfəvilərin yardımıyla Hümayunun əlinə keçsə də, bundan sonra bir neçə dəfə baburlularla səfəvilər arasında əl dəyişdirdi (1, s.293-294). Ədib bu problemi "Tac mahal" trilogiyasında geniş şəkildəişıqlandırır. Hakimiyyəti atasından yenicə ələ alan Cahangirə Şah Abbasın imperiyanın torpaqlarına qəsb etdiyini xəbər verirlər: "Əla həzrətləri Qəndəhardan bəd xəbərlər aldıq. Əcəm şahı Abbasın əmrilə Herat, Sistan və Fərəh qubernatorları şəhərə hücum etmişlər. Qəndəhar valisi Bəy xan bir çapar göndərib imperiyanın ordularından yardım tələb etmiş.

Cahangir " Bu necə olur?" deyə qaşlarını çatdı. "Şah Abbas mənim qardaşım kimidir. Bir qardaşın digər qardaşa aid torpaqları istila etməyə qalxması görülmüş şeymidir?" (5, s.298-301).

Qəndəhar imperiyada böyük əhəmiyyətə sahib bir ticarət mərkəzidir. Orası, Hindistanla Qərb ölkələri arasındakı ticari fəaliyyətlərin mərkəzi idi. Bununla yanaşı imperiyanın ən böyük nəzarət məntəqələrindən biri idi. Oranı Əcəm ölkəsinə buraxmaq Kabil də daxil, bütün şimal qərbi təhlükəyə atmaq demək idi.

Cahangir bu ərazilərin böyük təhlükə yaratdığını yaxşı başa düşürdü. Qəznəli Mahmuddan baburlulara qədər bütün axınlar və fəthlərin hamısı şimal qərb tərəfdən Şimali Hindistana yönəlmişdi. Buna görə də bu bölgədə baş verə biləcək hər hansı bir işğala mane olmaq baburlu siyasətinin də-

yişməz hədəflərindən biri olaraq qalırdı. Kabil və Pəşavər necə olursa-olsun tutulmalı, əgər mümkün olarsa, bu torpaqlar kimi Qəndəhar və Qəznə də ələ keçirilməli idi. Cahangirin məlum hədəfi "əcdadından miras qalan Məvəraunnəhrin fəthi" idi. Bu barədə o "Tüzük-i Cihangir"də bəhs edir. Səfəvi ilə baburlular arasındakı diplomatik münasibətlər hökmdarlar tərəfindən ideya və siyasi baxışlarına görə dəyişirdi. Şah Abbas zamanında Səfəvi dövləti ərazi, əhalinin sayı və gəlirləri baxımından daha balaca olmasına baxmayaraq Babur imperiyasından gələn hər cür hədə qorxuları asanlıqla dəf etməyi bacardı. İki dövlət də qarşılıqlı olaraq bir-birlərinə təcavüzkar diplomatiya yolunu izləyərək sərhəd ərazilərinə müdaxilə təhdidləri bəyan etdilər.

Səfəvilər baburluların qarşılıq verə bilməyəcəyi ağır bir təhdid ünsürünə sahib idi. Baburlu əslzadələrinin ən böyük etnik qruplarından birini təşkil edən İran zadəganları və əmirləri doğma yurdları ilə əlaqələrini kəsməmişdilər. İran mənsəb sahibləri bir az cəsarətlənmə ilə üsyan edərək Səfəvi müdaxiləsinin önünü aça bilərdilər. Səfəvilərdə isə belə bir vəzifə sahibi heç bir hindistanlı yox idi. Baburluların bir sülalə kimi mövcudluğu Səfəvilərin öncə Baburu, daha sonra da Hümayunu qaçqın olaraq qəbul etmələrinə borclu olduqlarından son dərəcə aciz idilər. Şah İsmayıl və Şah Təhmasibin şiəliyi açıq şəkildə mənimsəmələrinə yönəlik tələbləri aldıqları yardımlardan daha alçaldıcı idi (6, s.49). Mişel Fişə görə, son dövrə aid tədqiqatlara əsasən Əkbərin özünü bütün hökmdarlardan üstün olduğu iddiasını Babur və Hümayunun siyasi və dini baxımdan daha alçaldılmış bir şəkildə səfəvilərə boyun əyməsinin utancını ağlından çıxarmaq və ya diplomatik olaraq götürmək üçün ortaya atdığı iddia edilmişdir.

Müəllif Cahangirin Qəndəharı alma təşəbbüsündə Şah Abbasın təhrikedici rol oynadığına inana bilmədiyini əgər belə idisə, niyə bir il öncə taxta oturduğunda Şah bir məktub göndərərək onu təbrik etmiş olduğu fikirlərlə qəhrəmanı ilə yanaşı oxucularını da düşünməyə vadar edir. Cahangir bir tərəfdən ona məsləhət olunan qərarla razılaşsa da, digər tərəfdən şaha hücum üçün bəhanə vermir. O, imperiyanın ordusunu hökmdarlıq bayraqları ilə Qəndəhara göndərməyi, amma məsələ aydınlaşmadan heç bir hərəkət etmədən Əcəm şahına hücumla bağlı bir xəbər çatdırılmasını əmr edərək, şahın qubernatorları ilə əlaqədar lazımı tədbirlər görəcəyinə inandığını bildirir.

Hadisələrin gedişatı əsnasında bu mövzuya dönən İ.Sundaresan Qəndəharın baburluların nəzarətində olduğunu göstərir: "Qəndəhardan gələn xəbərlər ürək açan idi. İmperiyanın ordusu keçən ay qabaqdakı nəzarət məntəqəsinə çatmış və növbətçilər Cahangirin bayraqlarını gördükləri an qaçmışdılar. Əcəm Şahı səfiri Hüseyn bəyi göndərərək qubernatorlarının hərəkətləri üçün üzr istəmiş, Moğol sarayı və Cahangirlə aralarındakı əlaqələri pərçimləməyə çalışmışdı. İmperator səfirə hörmətlə yanaşmış, üzrlərini diplomatik nəzakətlə qəbul etmişdi. Lakin nə səfir, nə də onu şahı inandırıcı idi. Qəndəhar hücumu qiyamçı qubernatorlar tərəfindən deyil, birbaşa Şah tərəfindən təşkil olunmuşdu; Cahangirin xarici siyasətdəki cəsarətini sınamaq üçün! (5, s.345-346).

Müəllif Cahangirin Mehrunisəyə hədiyyə etdiyi "Şahnamə" ilə yenidən İran mövzusuna qayıdır. Müəllifin bəlkə qəhrəmanına olan sevgisi, ya da rəğbətindən onun tarixini də unutmur. Onun Əcəm diyarından gəldiyini oxucularına çatdırır: "Cahangir Əcəm qəhrəmanlarının qızıl suyuna çəkilmiş qabartmaları olan qırmızı dəri cildli incə bir kitab verdi. Bu sənin. Kitabxanadakı bu nüsxə onundu. Kitabda böyük İran hökmdarı Rüstəmin hekayəsindən bəhs olunur" (5, s.418).

Səfəvi-babur münasibətlərinə "Güllər ziyafəti" romanında yenidən dönən yazıçı Mehrunisənin Mehabat xanla oynadığı şahmat zamanı imperiyanın xarici siyasəti ilə bağlı Mehabata suallar yönəltdiyini və qarşılığında cavablar aldığını göstərir. Bu zaman ədib səfəvi-babur əlaqələrinə də toxunur. Müəllif Mehrunisənin fikirlərilə məsələyə aydınlıq gətirir. Mehrunisə Əcəm şahına etibar etmədiyini şah tərəfindən Qəndəharın davamlı təhdidə məruz qaldığını, şahın oranı torpaqlarına qatmaq istəyini bildirir. İmperiyanın müdafiə baxımından əhəmiyyətli bir qalasıdır ora. Əgər Qəndəhar itirilərsə, imperiyanın qalan hissəsi də asanlıqla təhdid altına düşəcəkdir. İmperatorun ilk illərində şahın Qəndəhar üçün böyük təhlükə yaratdığını xatırlayan Mehabat bu təhlükənin uğurla bərtərəf edildiyini və Şah Abbas da vuruşmanın məsuliyyətini daşıyan sərhəd qubernatorlarını günahlandırmış olduğunu xatırlayır, lakin imperiyanın şimal-qərb sərhədində hər hansı bir münaqişənin yaşandığına dair bir xəbər eşitmədiyini nəzərə çatdırır.

Müəllif Mehrunisənin ehtimallar üzərində dayanaraq “heç bir şəhərimizi itirməyi gözə ala bilmərik; xüsusilə də Qəndəharı” (6, s.244-245) fikirlərilə keçmişdə yaşanmış səfəvi-baburlu münaqişələrinə diqqət çəkir.

Məhəmməd Babur Qəndəhara qoşun çəkir, lakin Herat bəylərbəyisi Durmuş xan Şamlunun xahişindən sonra padşah mühasirədən əl çəkib Kabilə geri qayıtdı. Şüca bəy Xorasana gedər və şəhəri Molla Baqiyə tapşırır, amma həmin şəxs etimadsız çıxıb məmləkəti Baburluların ixtiyarına verdi. Babur padşah həzrətləri o vilayəti öz oğlu Mirzə Kamrana verdi və həmin tarixdən etibarən Qəndəhar Mirzə Kamranın tabeçilərinin əlində qaldı.

Cənnətməkan şahın mübarək taxtda əyləşməsindən sonra, onun hakimiyyətinin on birinci ili olan 941-ci il aylarında (13.07.1534 – 01.07.1535) Sam Mirzə Qəndəharı zəbt etmək həvəsinə düşüb, Qəndəhar üzərinə getdi. Sam Mirzə məqsədinə yetmədən geri döndü. Mirzə Kamran isə Xoca Kəlanı əvvəlki qaydada Qəndəharda qoyub, geri qayıtdı. 943-cü il aylarında (20.06.1536 – 09.06.1537) Xorasana gələn vaxt Şah Təhmasib Qəndəharı tutmaq üçün hərəkətə keçir. Sözügedən vilayət qüdrətli dövlətin başçılarının əlinə keçdi. Şah Təhmasibin İraq tərəfə qayıtmasından sonra Mirzə Kamran yenidən qoşun toplayıb Qəndəhara gəldi və qalanı əldə etdi (8, s.204).

İ.Sundaresan babur-səfəvi münasibətlərində hər iki dövlət arasında iki nəsil öncəyə dayanan Qəndəhar probleminə imperiyanın sarayı Kəşmirdə ikən Qəndəhar problemi böyüməyə başladığı zaman aydınlıq gətirərəkoxucularına bu məsələnin kökünün Hümayun şaha dayandığından bəhs edir.

Qəndəhara 1606-cı ildə ilk Əcəm mühasirəsindən bu yana şimal-qərb hüdudunda səssizlik hökm sürürdü. Son on ildir Moğol sarayında bir əcəm səfiri vardı və bu şəxs özü ilə birlikdə bol hədiyyələrlə bərabər Şah Abbasdan Cahangirə dostluq və barış təminatı da gətirmişdi. Sarayda Əcəm varlığı elə qalıcı idi ki, səfirlər üçün daim qalacaqları dəbdəbəli mənzillər inşa edilmişdi. Səfəvilər ilə münasibətin pozulmasını istəməyən Cahangir bu səbəbdən dövrün digər güclü imperiyası Osmanlı dövləti ilə münasibət qurmaqdan yayınmışdı. Lakin bir müddət sonra baburlularla səfəvilər arasında münaqişə baş verdikdə Cahangirin səfəvilərə qarşı osmanlılar və özbəklərlə bir ittifaq planladığı, hətta bu məqsədlə Osmanlı sultanı IV Murada bir məktub yazdığı məlum olmuşdu. Ancaq bu təşəbbüs nəticəsiz qalmışdır (www.sabahulkesi.com).

Kəşmirə dönüş yolunda Mehrunisə ilə Cahangirin aldıqları ilk xəbər Qəndəhara başqa bir Əcəm istilasının olması idi.

Qəndəhar sorunu iki nəsil öncəyə Əkbərin atası və Hind-Moğol imperiyasının ikinci hökmdarı olan Hümayunun dövrünə qədər uzanır. Atasının Hindistanı fəth etməsindən dörd il sonra imperator olan Hümayun ölkə xalqının torpaqlarını fəth edənlərə qarşı narazı olduğunu və onları qovmaq arzusunda olduqlarını başa düşür. Həqiqətən də Şah Şərsur tərəfindən Çausa və Kanaujadakı münaqişələrdə məğlub olub Hindistandan qovulur.

İmperator Hümayun Əcəm hökmdarı Şah Təhmasib Səfəviyə sığınır və onun dəstəyi ilə əfqan kralını Qəndəhardan çıxardır. Bəyazit Bayat öz əsərində Hümayunun Şah Təhmasibə yazdığı təslimçilik qeydi Səfəvi sarayını təsirləndirdiyindən bəhs edir: “Hər nə qədər rəsmən görkəmli hökmdarın xidmətçiləri arasında yer almadığıma baxmayaraq, güclü sevgi və sədaqət bağları məni hər zaman sizə çəkmişdir. Taleyin bir cilvəsi olaraq artıq Hindistanın geniş torpaqlarını deyil, Sinddə kiçik bir ərazini idarə edirəm. Qarşınıza çıxdığım zaman vəziyyətini sizə başa sala biləcəyimə inanıram” (2, s.50-51). Şəhərdən ordugah kimi istifadə edən Hümayun Kabili fəth etdərək imperiyasını yenidən qurmaq üzrə Hindistana müzəffər olaraq dönür. Hümayunla Şah Təhmasib arasında gizli bir razılaşmaya əsasən Hindistan ələ keçər-keçməz Qəndəhar əcəmlərə veriləcəkdi. Amma bu yerinə yetirilmir. Nə imperator Hümayun, nə də oğlu Əkbər Qəndəhardan vaz keçdi. İmperator Cahangir zamanında isə orası artıq Moğol imperiyasının bir parçasına çevrilmişdi.

Fransız ədəbiyyatşünası R.Velleke görə romanda iki həqiqət vardır: bunlardan biri hadisələrə bağlı olan, müəyyən bir yer və zaman aid, tarixi, elmi gerçək, digəri isə anlamlara bağlı fəlsəfi, faktiki bir gerçəkdir. Bu baxış bucağına görə roman yazıçısının da ən az tarixçi qədər həqiqətə bağlı

qalmaq kimi bir məsuliyyəti vardır. İndu Sundaresan trilogiyasına bədii boyalar qatsa da tarixi faktlara sadiq qalır xronoloji ardıcıllıqla hadisələri təsvir edir dövrün mühüm hadisələrini canlandırır.

1606-cı il istilası şəhərdən kənar sadəcə savaş bayraqlarının yüksəldiyi quru bir gurultudan ibarət olduğunu bildirən yazıçı iki qonşu və müttəfiq dövlət arasında yaşanan bu problemi şahların zəkaları sayəsində bir-biri ilə savaş üçün bəhanə vermədən bu torpaq uğrunda mübarizə apardıqlarını təsvir edir: "Artıq şahın niyyətləri haqqında şübhə qalmamışdı. Cahangirə yazaraq onun babasının verdiyi sözü xatırlatdı. Cahangir ona cavab olaraq qüdrətli imperiyası ola-ola şahın niyə belə əhəmiyyətsiz bir qəsəbəyə marağının olduğunu soruşdu. Hər iki məktubdan da sanki bal axırdı, amma nə şah, nə də Cahangir bir-birlərini aldada bildilər. Şah Qəndəharı fəth edəcəkdi; Cahangir də oranı müdafiə etmək məcburiyyətində idi (6, s.461-462).

Qəndəharın istilasıyla bağlı rəsmi xəbərlərin yanı sıra hökmdarlıq sarayına başqa bir dedi-qodu da çatmışdı. Şahın əmriylə ən böyük oğlu bir kölə tərəfindən öldürülmüşdü. Bu çox qorxunc bir şəkildə həyata keçirilmişdi: Şahzadə yağışlı bir ilkindi vaxtı yerli bazarda bıçaqlanaraq öldürülmüş və cəsədi iki gün boyunca küçədə palçığın içində qaldıqdan sonra sürüklənərək basdırılmağa aparılmışdı. Cahangir "bir baba oğlunun öldürülməsini necə əmr edə bilər", - deyə heyrətlər içində düşünür. Şah dəli olmuşdu; buna görə də onun başına bəla idi. Şah Abbas durdurulmalıydı. Müzəffər bir orduya komandirlik edəcək tək şəxs Xürrəm idi. İmperator Dekkandakı oğluna məktub yazaraq şimala yönəlməli və Qəndəhar problemini həll etməli olduğunu bildirir. Xürrəm isə bəhanələr gətirərək getmir. Cahangir əsəbləşir onu saraya çağırır. Lakin Xürrəm ora getsə kəlləsindən olacağını bilir. Nə də olsa, ortada bir örnək vardı. Bir hökmdar oğlunun öldürülməsini buyurmuşsa, başqa biri niyə eyni cür hərəkət etməsin?

Ədib Xürrəmin atasının əmrinə qarşı çıxıb səfəvilərə müqavimət göstərmədiyi üçün Əcəm şahının Qəndəhara ayağını elə sağlam yerləşdirdiyini onu yerindən tərpətmək mümkün olmadığını nəzərə çatdırır.

Trilogiyanın üçüncü romanı "Kölgə şahzadə"də yazıçı səfəvi-baburlu əlaqələrindən bəhs edərkən siyasi evlilik məsələlərinə toxunur. Hökmdarlar daima ittifaqa daxil olarlar. Belə ki, evliliklər siyasi bir ittifaq vasitəsidir (3, s.87).

Şuca Mirzə Rüstəm Səfəvinin qızıyla evlənir. Hindistana qırx il əvvəl gəlmiş iranlı Şah İsmayılın nəvəsi və imperator Əkbərin saray mənsubu olmuşdu. Rüstəm yaşlı idi, altmışa yaxın yaşı vardı, lakin Şucanın evləndiyi qız onun gənc arvadlarından birindən doğulmuşdu. Şah əcdadlarından və İran şahı ilə qan bağlarından olduqca ayrı olaraq Rüstəmin ailəsinin Babur imperiyası ailəsi ilə əlaqələri keçmişə dayanırdı. İmperator Şah Cahanın birinci arvadı Rüstəmin qardaşı qızı idi. Beləliklə, Şuca Rüstəmin qardaşı qızı ögey anasının əmisi qızı ilə evlənmiş olurdu. Şah Şucanın səfəvilərlə qohum olmasının ardından Şah Cahan digər iki oğluna da səfəvilərdən qızlar alır: "Şahnəvəz Xan Səfəvi soyunu İran imperiyasına o qədər yaxından izləyə bilirdi ki, hələ də Səfəvi adını daşıyırdı. Aurəngzəb və Murad onun qızlarıyla evlənirdi. Sarayda qüdrətli əsilzadə idi" (7, s.251).

Yazıçı oğlanlarının toy mərasimində bir tərəfdən qohum olan səfəvi və baburluların digər tərəfdən mübahisəli Qəndəhar uğrunda döyüşdüklərini təsvir edir: "Onlar Aqrada toyları qeyd edərkən imperiyanın şimal qərb sərhədindən Qəndəharın ticarət nəzarət məntəqəsinin yenidən fəthi ilə əlaqədar daha xoş xəbərlər yetişir" (7, s.252).

İmperator Cahangir 1622-ci ildə İran şahına Qəndəharı uduzanda, imperator Şah Cahan o vaxtlar – Şahzadə Xürrəm kömək etmək üçün gəlməyi Dekkanın təhlükəsizliyindən şimala gəlməkdən imtina etmişdi. Bunun əvəzinə atasının diqqətinin başqa məsələ üzərində cəmlənməsindən yaralanaraq xəzinəni ələ keçirmək ümidilə Aqraya hücum çəkmişdi. İmperator Cahangir sərsəri oğlunun ordusu ilə qarşılaşmaq üçün böyük bir ordu ilə Lahordan ayrılaraq, onu məğlub edərək sürgünə yollayır. Amma Qəndəhar İran şaha yenilir.

Hadisədən təxminən on beş il sonra belə imperator Şah Cahan Qəndəharın itkisinə görə yalnız onun məsuliyyət daşıdığı təəssüratını silə bilmir. Hakimiyyətinin ilk ilindən Kabulun qubernatoru Səid xana əmr verir. İranın Qəndəhar xanı Əli Mərdan xanın şahına xəyanət edəcəyinə əmin ola biləcək ümidilə diplomatik missiyalar göndərir. Belə də olur. Tək bir atış olmadan və ya bir həyat iti-

rilmədən Qəndəhar yenidən Babur imperiyasının ərazisi olur. Şahzadə Cahanara xəbəri eşidəndə atasına Əli Mərdan xanın şəxsən beyət etməsini məsləhət görür. Bu yolla yeni alınan Qəndəhar quberniyası Səid xanın özünə verilə bilərdi. Bu parlaq diplomatik hərəkət idi belə ki, Səid xan möhkəm bir Babur tərəfdarı idi və Qəndəharı müharibəsiz iranlılara təkrar verməyə razı salına bilinməzdi. Əli Mərdən xan Aqraya gələndə sarayda qarşılanır və böyük bir mənsəb verilir. Bir ay sonra Cahanara Əli Mərdan xanın bacarıqlı bir general və döyüşçü olduğunu, saray həyatının ona yaraşmayacağını, ancaq Kəşmir qubernatoru olacağını söyləyir. Beləliklə, saraydakı mərasimlər və vəzifələrindən rahatsız olmağa yeni başlayan Əli Mərdan xan da məmnuniyyətlə Himalay krallığı Kəşmirə gedir. Qəndəhardan imtina edərək imperator Şah Cahanın xidmətinə qoşulmaq üçün ağıllı bir manevrə olaraq başlayan şey sarayda ən etibarlı olunan generallardan biri halına gəlməsilə zirvəyə çatır. İl sona çatmadan öncə imperator onun sədaqətini Əmirül-ümra edərək mükafatlandırır.

Yazıçı romanını bitirərkən hadisələrlə bağlı Qəndəhar məsələsindən söz açır və bu mübahisəli ərazinin səfəvilər tərəfindən ələ keçirildiyini təsvir edir: "İmperiya sarayı yay üçün Kəşmirdə olarkən Bəlx qubernatoru Nəzər Məhəmməd xan Kabili işğal etməyə təşəbbüs etsə də uğursuz oldu. Şah Cahan xəbərdən qəzəblənərək və qisas almaq məqsədilə Babur imperiyasının qüvvələrini Bəlxi işğal etməyə göndərdi. İmperator bu bəhanədən istifadə edərək uzun müddət Bəlx və Bədəxşanı birləşdirmək istədi. Şah Cahan Əmirül-ümrə Əli Mərdan xanın qəyyumluğuda şahzadə Muradı ordunun başına keçirərək əlli min süvari və on min top və tüfənglə silahlanmış piyadadan ibarət güclü qoşunu Bəlxə göndərdi. Hətta İmperiya qoşunları görünmədən Bəlx çökdü. Murad burada qalıb möhkəmlənmək əmri verdi. Lakin qışın düşməsi şahzadənin zəif bədəninə təsir etdiyindən şahzadə atasına məktub yazaraq Hindistana geri dönməsi üçün yalvardı" (7, s.290).

Ordunun digər qolu bu hadisələr baş verərkən Bədəxşanı fəth edir, hökmdarı qovur onu öldürür və məşhur yaqut mədənlərini ələ keçirir. Sonda Muradın aciz və zəifliyindən diksinən imperator Şah Cahan Aurəngzəbi Qucerat qubernatorluğundan azad edərək əvəzində Bəlx və Bədəxşanı verdi. Bütün əməliyyat əvvəldən bir səhv idi, çünki Aurəngzəb süvari və piyadadan ibarət cəmi iyirmi beş minlik bir ordu ilə təchiz edilmişdi və ələ keçirməyə gəlməzdən əvvəl özbəklər tərəfindən sürpriz hücumlar nəticəsində basqın edilərək qüvvələri ciddi şəkildə məhv edilir. Bu arada Nəzər Məhəmməd xan qoşun toplayıb Bəlxi şahzadənin əlindən alır. Aurəngzəb Bəlxə daxil olanda xəzinənin sərvətini toplamaq üçün çətinliklə vaxt tapır. Hindquş dağlarındakı Ərbəng keçidilə Hindistana qaçır. Qış olduğundan sərt hava şəraitilə əlaqədar olaraq beş min döyüşçü minlərlə sürü heyvanı ilə birlikdə qara gömülür. Aurəngzəb son dərəcə yorğun, sinəsindəki öskürəklə, zəiflədilmiş ordusu ilə Lahora qayıdır, götürdüyü xəzinənin yarısı dağlarda buz qatlarına gömülərək sonsuza qədər orada qalır.

Bir ay sonra Səfəvi şahı II Abbas imperiyanın qüvvələrini məğlub edərək Qəndəharı tutur və baburlular qisas almaqüçünöz şəxsi güclü ordusunu qurur. Beləliklə, Hindistandakı Babur hökmdarların tarixinin çoxunda olduğu kimi, Qəndəhar baburların əlindən səfəvilərə keçir.

Bu bir təhqir idi və imperator Şah Cahan dərhal cavab verməyə tələsir, çünki Qəndəharın təhlükəsizliyində məsuliyyətsiz hərəkət etmiş, Bəlxin uğursuz fəthi üçün lazım olduğundan artıq güc sərf etmişdi. O, şahzadə Aurəngzəbə sərt məktub yollayaraq ona digər oğlanları içərisində ən xoşlamağı olduğunu xatırladır, lakin bu ən sevmədiyi oğlu güclü bir komandir olma ehtimalı ən yüksək olanıydı və bu səfərə onunla birlikdə imperiyanın ən önəmli nəcib şəxslərindən ibarət ordusunu göndərir – böyük vəzir Sədullah xan, Raca Cai Sinq, Əli Mərdan xan, Rüstəm xan, Raca Bithaldas və kütləvi ordu.

Cahanara atasının bu hərəkətinin ağıllı bir fikir olub-olmadığını sorğuya çəkir. Cahan şah qızına Qəndəharın yenidən imperiyanın bir parçası olmalı olduğunu və bunun haqlı olaraq baburluların olduğunu vurğulayır. Cahanara atası ilə razılaşsa da, səfəvilərin belə düşünmədiyini, Qəndəhar ilə bir keçmişlərinin mövcudluğunu və təcavüzkar davranışlarını imperator Hümayunun Səfəvi şahına uzun zamandır unudulmuş olan bir sözə dayandırdıqlarını bildirir. İ.Sundaresan Cahanaranın fikirlərilə Şahın öncə Qəndəharın (Hindistana daxil olarkən) fəth edilməsinin vacibliyindən, Humayunun vəzifəsini bitirdikdən sonra onu səfəvilərə verəcəyi şərtilə Hindistanı yenidən əldə etmək

üçün Hümayuna qoşunla yardım etdiyini, lakin babur hökmdarlarının Qəndəharı səfəvilərə vermədikləri üçün zaman-zaman münaqişələrin yaşandığını səfəvilərin bu nəzarət məntəqəsini götürdüklərini, itirdiklərini və indi də yenidən aldıqlarını təsvir edir.

Nəhayət on altı yaşlı səfəvi hökmdarı II Şah Abbas Babur ordularının gözlədiyindən daha cəsur və güclü olur. Qəndəharı beş ay mühasirədə saxlayaraq qalaya daxil olan suyun, taxılın və yeməyin içəri girməsinə mane olurlar, lakin qalanın müdafiəçilərinin müqavimətini qıra bilmirlər. Cahan şah vəziyyətdə dəyişiklik yaratmaq məqsədilə Aurəngzəbi geri çağırır və bu dəfə Daranı yollayır, amma nəticə dəyişmir. Dara da digər şahzadə qardaşı kimi uğursuzluqla üzləşir. Beləliklə, Əkbərin bu ərazini 1595-ci ildə ələ keçirdikdən sonra ilk dəfə 1623-cü ildə itirən baburlular 1648-ci ildə həmişəlik olaraq Qəndəhar ilə vidalaşmalı olurlar.

**Nəticə**

İndu Sundaresanın "Tac Mahal" trilogiyasında hind tarixilə yanaşı türk tarixinin də mürəkkəb, keşməkeşli hadisələri öz bədii təcəssümünü tapmışdır. Yazıçının trilogiyasını səciyyələndirən mühüm cəhətlərindən biri əhatə etdiyi tarixi dövrü bütün təfərrüatı ilə canlandıra bilməsidir. O, romanlarında yaratdığı obrazları, baş verən hadisələri, yalnız fakt və sənədlər əsasında təsvir etmir, ona özünəməxsus bədiilik, canlılıq, obrazlılıq və ən nəhayət şərqsayağı ecazkarlıq bəxş edir. Trilogiyaya daxil olan romanlar yalnız bədii düşüncənin məhsulu olmayıb, eyni zamanda bir çox xalqları öz bayrağı altında birləşdirən Babur imperiyasında yaşayan insanların tarixi dəyərlərini, etnoqrafiyasını, mədəniyyətini, birliyini əks etdirən qiymətli əsərlərdir.

## ƏDƏBİYYAT


1. Azmi Özcan. İslam Ansklopedisi. Babürlüler 2001, s.293-294
2. Bayazid Bayat. "Tarikh-i Humayun" *Three Memoirs of Humayun* içində, ing. Çev. W.M.Thackston (Costa Mesa:Mazda), 2009
3. Cansu Canan Özgen. Türklerin serüveni. Kronik yayını, İstanbul, 2018, s.87
4. Güntay Gəncalp. Səfəvilər. Bakı. Qanun Nəşriyyatı, 2012, s.184
5. Indu Sundaresan . Shadow Princess. Washington Square Press, New York, 2010
6. İndu Sundaresan. Yirminci Eş. Literatür Yayın, İstanbul, 2004
7. İndu Sundaresan. Güller şöleni. Literatür Yayın, İstanbul, 2006
8. İsgəndər bəy Münşi. Tarix-i aləmara-yı Abbasi. Təhsil. Bakı-2009, s.204
9. John F.Richards. Babür Tür İmparatorluğu.çev. Yasin Tekin, Selenge yayınlarıİstanbul 2021,
10. Muharrem Dayanç. Yeni Türk Edebiyatı Kaynağı olarak Tarih ve Tarihi Eleştiri. Turkish Studies, 2009, c. IV, s.1875
11. Michael H.Fisher. Babürlüler. Kronik yayınları. İstanbul,2020
12. Rene Wellek, Austin Warren (1983). Edebiyat Biliminin Temelleri. Ankara, Kültür ve Turizm Bakanlığı yanınları s.291
13. Tufan Gündüz. Son Kızılbaş Şah İsmayıl. İstanbul, Yeditepe Yayınevi, 2015, s.104
14. https://www.sabahulkesi.com/2014/04/01/t%c3%bcrk-islamtarihinin-kay%c4%b1p-par%c3%a7asi-hindistan/

### РЕЗЮМЕ

**Лейла ПИРИМОВА**

**Отношения Сафави и Бабурлу в трилогии Инду Сундаресан “Тадж-Махал”**

**Ключевые слова:** *Бабурская империя, Сефевид, Индия, турецкий, трилогия*

В средние века разные тюркские государства и разные исламские культуры переживали свой золотой век в разных географических регионах. Многие историки называют его «турецким веком». Однако сложно сказать, что между этими странами существуют хорошие отношения. Многие из этих государств столкнулись на поле боя. Инду Сундаресан также обратился к истории того периода в трилогии Тадж-Махала.

Автор предлагает читателю взглянуть на историю средневековья, описывая события, происходившие в трилогии. В трилогии об империи Бабура писатель естественным образом описывает политическую среду того периода и уделяет большое внимание внутренней и внешней политике народа Бабура. Среди этих важных вопросов особого внимания заслуживает вопрос, имеющий непосредственное отношение к нашей истории: как были установлены отношения с империей Бабура, соседом и партнером Сефевидского государства Азербайджана, и следующие этапы развития.

Ряд исторических деятелей, служивших в империи Бабур, были выходцами из государств Сефевидов. Влияние этих личностей во дворце было очень сильным, и эта знать могла бы, проявив немного мужества, восстать и предотвратить вмешательство Сефевидов. Самой большой проблемой среди этих государств был захват КПП в Кандагаре. Обе страны следовали агрессивной дипломатии друг друга и угрожали вторжением в приграничные районы. Писатель художественно и богато описал эти события в своей трилогии.



### SUMMARY

**Leyla PIRIMOVA**

**Safavid-Babur Relationships in the Indu Sundaresan’s ‘Taj Mahal’ Trilogy**

**Keywords:** *Babur’s empire, Safavid, India, Turkish, trilogy*

In the Middle Ages, different Turkic states and Turkic-Islamic cultures were living their golden age in different geographies. This period is called the ‘Turkic century’ by many historians. However, it is difficult to say that there were good relations between these countries. Many of these states have been confronted on the battlefield. Indu Sundaresan also addressed the history of that period in the ‘Taj Mahal’ trilogy. The author directs the reader to look at the history of the Middle Ages by describing the events that took place in the trilogy.

In the trilogy about the Babur’s empire, the writer naturally describes the political environment of the period and gives extensive space to the domestic and foreign policy of the state. Among these important issues, one issue that is directly related to our history is particularly noteworthy, which is how the relations with the Babur Empire, a neighbor and partner of the Safavid state of Azerbaijan, were established.

A number of historical figures who served in the Babur Empire were originally from the Safavid state.These figures had a strong influence in the palace, and with the support of the Safavids, they could pave the way for Safavid intervention. The biggest problem between these states was the capture of the Kandahar checkpoint. Both countries followed each other’s aggressive diplomacy and threatened to invade the border areas. The writer describes these real events in his trilogy with literary and rich colors.